# Kişinin, özünə aid olmayan şeyi tərk etməsi, onun İslamının gözəlliyindəndir

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Allah Rəsulu (sallallahu əleyhi va səlləm) belə demişdir: "Kişinin, özünə aid olmayan şeyi tərk etməsi, onun İslamının gözəlliyindəndir".
[قال النووي: حديث حسن] [رواه الترمذي وغيره]

Peyğəmbər (sallallahu əleyhi va səlləm) bu hədisdə bəyan etmişdir ki, müsəlmanın İslamının kamilliyi və imanının tamlığından biri də, din və dünya işlərində ona aidiyyəti olmayan, onu maraqlandırmayan və həmçinin ona fayda verməyən söz və əməllərdən uzaq durmasıdır. Çünki insanın ona aidiyyəti olmayan işlərlə məşğul olması, onu, özünə aid olan işlərdən yayındıra bilər yaxud da onu uzaq durmalı olduğu şeylərə sürükləyə bilər. Çünki insan Qiyamət günü öz əməllərinə görə sorğu-sual olunacaqdır.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee